**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN DİLÇİLİYİNDƏ FONETİKA VƏ FONOLOGİYA PROBLEMLƏRİ: FORMALAŞMASI VƏ İNKİŞAF TARİXİ

İxtisas: 5704.01 – "Dil nəzəriyyəsi"
Elm sahəsi: Filologiya

**Xuraman Tapdıq qızı Hacızadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2024**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Dilçilik" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Nizami Qulu oğlu Cəfərov** |
| Rəsmi opponentlər: | Filologiya elmləri doktoru, professor<br>**Adil Məhəmməd oğlu Babayev** |
| | Filologiya elmləri doktoru, professor<br>**Afət Musa qızı Abbasova** |
| | Filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Qurban Məmməd oğlu Qurbanlı** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurası bazasında yaradılmış BFD 2.39/1 Birdəfəlik dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor<br>**Əbülfəz Aman oğlu Quliyev** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | Filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İman Zeynalabdin oğlu Cəfərov** |
| Elmi seminarın sədri: ____________ | Filologiya elmləri doktoru, professor<br>**İlham Mikayıl oğlu Tahirov** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Bugünkü dünyanın əsas göstəricilərindən biri olan qloballaşma, şübhəsiz ki, müxtəlif xalqların dillərinə də əsaslı şəkildə təsir etməkdədir. Dünya dəyişib inkişaf etdikcə dillərdə də daim yeni sözlər, ifadələr yaranmaqdadır ki, bu sözlərin tələffüz qaydalarını da məhz fonetika müəyyən edir. Sürətli inteqrasiya şəraitində ölkələrin və xalqların orfoqrafiya və orfoepiya qaydalarının zaman keçdikçə təkmilləşib və qismən dəyişməsi baxımından fonetika məsələlərinin də daim araşdırılmasına ciddi ehtiyac duyulmaqdadır.

23 may 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qloballaşma şəraitində Azərbaycan dilinin zamanın tələbinə uyğun işlədilməsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramının hazırlanması haqqında" sərəncam imzalamışdır. Həmin sərəncama görə, Azərbaycan dilçiliyi sahəsindəki tədqiqatlar dövrün tələblərinə cavab verməli, inkişaf edən dünya elmləri sistemində aparıcı yerlərdən birini tutmalıdır. Şübhəsiz ki, bu sərəncamdan irəli gələn tələblər fonetika və fonologiya istiqamətindəki araşdırmalarda da nəzərə alınmalıdır. Göründüyü kimi, Azərbaycan dilçiliyində fonetika və fonologiya məsələlərinin işlənmə səviyyəsinin araşdırılması artıq dövrün tələbidir.

Azərbaycan dilçiliyində müxtəlif dövrlərdə fonetika və fonologiya sahəsində aparılan tədqiqatların keyfiyyət və kəmiyyəti eyni olmamışdır. Problemlərin həlli səviyyəsini müəyyənləşdirmək üçün tədqiqatların keyfiyyət və kəmiyyətini üzə çıxartmaq zəruridir. Bu sahədə üzərindən səthi keçilən, tədqiqdən kənarda qalan, vahid təsviri olmayan problemlər vardır ki, onların müəyyənləşdirilməsi üçün məhz bu mövzunun seçilməsi aktuallıq baxımından günümüzün tələblərindən irəli gəlir.

Fonetika və fonologiya sahəsindəki əsas problemləri müəyyənləşdirmək üçün ilk növbədə bu problemlərin tədqiq tarixini öyrənməyə ehtiyac vardır. Bundan başqa, dünya dilçiliyinin tələblərinə cavab verməkdən ötrü Azərbaycan dilçiliyində də fonetika və fonologiyanın tədqiq tarixi mütləq öyrənilməli, bu tarix

dövrləşdirilməlidir. Bu aspektdən də dissertasiya olduqca aktual mövzuya həsr edilən tədqiqat əsəridir.

Azərbaycan dilçiliyində fonologiya və fonetika sahəsində zaman-zaman aparılan tədqiqatlar çoxdur. Bu tədqiqatların məzmunundan, fonetika və fonologiya problemlərinə aid ədəbiyyatlarda, Azərbaycan dilçiliyi tarixinə həsr edilmiş əsərlərdə müəyyən dərəcədə bəhs olunsa da, ayrıca bir tədqiqat mövzusu olmamış, problemlərin monoqrafik tədqiqi aparılmamışdır.

Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin tədqiq tarixi, onun dövrləşməsi, bu sahədə görülmüş işlərin nəzəri təhlilinə aid xüsusi elmi ədəbiyyat olmadığından dissertasiya Azərbaycan dilçiliyində fonetika, fonologiya problemlərinin tədqiqi tarixinin ardıcıllıqla araşdırılması sahəsində ilk sistemli tədqiqat işidir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan və dünya dilçiliyində fonetika və fonologiya problemlərinə həsr olunmuş məqalələr, dərslik və dərs vəsaitləri, dissertasiyalar, monoqrafiyalar, mövcud elmi-metodik əsərlər, eləcə də dilçi alimlərin problemlərlə bağlı fikirləri, alınmış nəticələr tədqiqatın obyektini təşkil edir. Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin öyrənilmə tarixi, nəzəri məsələləri, bu problemə münasibətdə linqvistik yanaşmalar tədqiqatın predimetidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin tədqiq tarixini dövrləşdirmək, eləcə də həmin problemlərin işlənmə səviyyəsini müəyyənləşdirməkdən ibarətdir. İşdə əsas məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin araşdırılması tarixini ardıcıl izləmək, bu tarixi dövrləşdirmək.

– 1920-ci illərə qədər Azərbaycan alim və mütəfəkkirlərinin yaradıcılığında öz əksini tapmış fonetika məsələlərinin təhlilini aparmaq, alınmış nəticələrin müasir elmi meyarlara uyğunluğunu dəqiqləşdirmək.

– Sovet dövründə Azərbaycan dilçiliyinin əsas nümayəndələrinin problemlərlə əlaqədar mövqelərinə aydınlıq gətirmək, o dövrdə, xüsusilə H.Əliyevin hakimiyyəti illərində görülmüş işlərin məzmunu barəsində məlumat vermək.

– Müasir dövrdə fonetika və fonologiya sahəsində aparılan tədqiqatların təsvirini vermək, görülmüş işlərin keyfiyyət və kəmiyyətinə dair dolğun təəssürat yaratmaq, çağdaş tədqiqatçıların polemikalarının elmi mənzərəsini vermək.

– Azərbaycan dilçiliyində əsas problemlərdən olan fonem problemi, fonemlərin sistemləşdirilməsi, təsnifi ilə bağlı tədqiqatları müqayisə kontekstində təhlil etmək, tam olaraq təsvirini tapmayan problemləri müəyyənləşdirmək.

– Azərbaycan dilinin fonemlər sisitemi ilə bağlı yenidən tədqiqə ehtiyac olan vacib məsələləri dəqiqləşdirmək. Geminatlar, uzun saitlər, diftonqlar probleminə dair azərbaycanlı alimlərin nailiyyətlərini qiymətləndirmək.

– Azərbaycan dilçiliyində ahəng qanunu, fonetik hadisə və əvəzlənmələrin tədqiqi ilə bağlı əldə olunmuş nəticələri təhlil etmək, tədqiq olunmuş və hələ də problem olaraq qalan məsələləri dəqiqləşdirmək.

– Azərbaycan dilçiliyində heca, vurğu, intonasiya ilə bağlı tədqiqatların vəziyyətini şərh etmək. Alınmış nəticələri analiz etmək.

**Tədqiqat metodları.** Qarşıya qoyulan problemin həlli üçün dissertasiyada Azərbaycan dilçiliyinin mühüm sahələrindən olan fonetika və fonologiyanın keçdiyi yol izlənilmiş, alınmış nəticələr müqayisə olunaraq təsvir edilmişdir. Tədqiqat zamanı istifadə edilmiş əsas metod və üsullar bunlardır: sinxron aspektdə təsvir, sistemləşdirmə, analiz və sintez, müşahidə və s.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. 1920-ci illərə qədər Avropada daha çox qrammatikaya həsr olunmuş əsərlər yazılırdısa, Azərbaycanda yaxın şərqdə olduğu kimi lüğətçilik daha çox inkişaf etmişdi. XIX əsrdən başlayaraq Azərbaycanda da qrammatika ilə bağlı ədəbiyyatlar yaranmağa başladı. Tərtib olunmuş lüğətlərin demək olar ki, böyük

əksəriyyətində, eləcə də qrammatika kitablarında fonetika məsələlərinə rast gəlmək olar. Həmin əsərlərdə əsasən hərflərin yazılışından bəhs olunurdu. Səslə hərf arasındakı fərq tam müəyyənləşdirilməmişdi, bu səbəbdən də səslərin sayı qrafikadakı hərflərin sayına bərabər tutulurdu. İstifadə olunan ərəb qrafikasına əsasən saitlərin sayı iki və ya üç göstərilirdi.

2. 1920-1990-cı illər, yəni sovet dövrü Azərbaycanda fonetika və fonologiyanın tədqiq tarixi iki mərhələyə ayrılmalıdır. 1920-1970-ci illərdə ilk əvvəllər praktik sahədəki işlər diqqət çəksə də, sonralar fonem problemi, xüsusilə fonetika məsələləri ilə bağlı bir çox elmi ədəbiyyatlar yaranmışdır. 1969-cu ildə Ümumilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan dilçiliyinin inkişafında da mühüm rol oynadı. Həmin illərdə fonetika, fonologiya sahəsində sistemli şəkildə dünya dilçiliyi səviyyəsində tədqiqatlar aparılmış, dilçi kadrların sayı artmışdır.

3. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra dilçilik sahəsində də yeni dönəm başladı. Bu dövrdə Azərbaycan tarixi və ədəbiyyatşünaslığında olduğu kimi, dilçiliyində də tədqiqatlar azərbaycançılıq ideologiyası əsasında aparılmalıdır. Yeni ədəbiyyatlar, fikirlər yaranmışdır.

4. Azərbaycan dilçiliyində geminatlar, uzun saitlər, diftonqlar bir çox tədqiqatçılar tərəfindən araşdırılsa da, birmənalı şəkildə fonem kimi qəbul olunmur.

5. Azərbaycan dilinin fonemlər sisteminin tərkibi, fonemlərin sayı məsələlərində vahid təsnifat yoxdur. Sait və samit fonemlərlə bağlı təsnifatlarda dilçi alimlər arasında fikir ayrılıqları mövcuddur.

8. Fonetik hadisə və əvəzlənmələr, fonetik qanunlarla bağlı mübahisələr davam edir. Ahəng qanununu növlərə ayırarkən tədqiqatçıların çoxu müxtəlif nəticələr əldə etmişlər.

9. Azəbaycan dilçiliyində fonosemantik poblemlərdən olan vurğu, xüsusilə heca vurğusu və intonasiya akademik səviyyədə tədqiqata cəlb olunmuşdur. İntonasiya problemi əsasən "cümlə fonetikası" çərçivəsində öyrənilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada fonetika və fonologiya problemlərinin formalaşması və inkişafı tarixinə bir

sistem halında yanaşılmış, bu sahədə aparılmış tədqiqatların dövrləşdirilərək monoqrafik şəkildə təhlili və tədqiqi həyata keçirilmişdir. İşdə ilk dəfə olaraq fonetika və fonologiya problemlərinin tədqiqi tarixi mərhələlərə ayrılmış, göstərilmişdir ki, qədim dövrdən 1920-ci illərə qədərki dövr birinci mərhələyə, sovet dövrü ikinci mərhələyə, müstəqillik dövrü üçüncü mərhələyə aiddir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada aparılan təhlillər nəticəsində irəli sürülən mülahizə və müddəalar dilçilik elmini nəzəri cəhətdən zənginləşdirəcəkdir.

Bu tədqiqat dilçilik tarixi, xüsusilə fonetika və fonologiya sahəsində yeni elmi əsərlərin yazılmasında, dillərin fonetikasının, xüsusilə fonemlər sisteminin təsvirində və formalaşdırılmasında lazımlı faktlar verəcək, ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün xüsusi kursların keçirilməsi, dərs vəsaitlərinin hazırlanması, fonetika və dilçilik tarixi dərslərinin aparılması zamanı gərəkli mənbə olacaqdır.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın mövzusu 15 dekabr 2008-ci ildə AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətində, 03 iyun 2009-cu il tarixində Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının Dilçilik üzrə Problem Şurasında təsdiqlənmişdir. Dissertasiya işinin əsas məzmunu müəllifin yerli və xarici elmi jurnallarda müxtəlif dillərdə (Azərbaycan, ingilis, rus) çap edilmiş 27 elmi məqalə, konfrans materialları, tezislərində, həmçinin 2 proqramında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Dilçilik" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi "Giriş", on bir paraqrafı əhatə edən üç fəsil, "Nəticə", istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

"Giriş" 5, I fəsil 37, II fəsil 39, III fəsil 40, "Nəticə" 3, istifadə olunmuş ədəbiyyat siyahısı 14 səhifədir. Dissertasiya 242708 işarədən, ümumilikdə 141 səhifədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat zamanı istifadə olunan metodlar qeyd olunmuş, müdafiəyə çıxarılmış müddəalar öz əksini tapmış, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası haqqında məlumat verilmiş, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı, həcmi göstərilmişdir.

Dissertasiyanın **I fəsli "Azərbaycan dilçiliyində fonetika və fonologiyanın tədqiq mərhələləri"** adlanır. Fəslin **"1920-ci illərə qədər Azərbaycan alim və mütəfəkkirlərinin yaradıcılığında fonetika məsələləri"** adlı **1-ci paraqrafında** diqqətə çatdırılır ki, 1920-ci illərə qədər Azərbaycan dilçiliyində fonetika məsələləri praktik səciyyə daşımış, əsasən hərflərin yazılışı və tələffüzündən bəhs olunmuşdur. Mövcud ədəbiyyatlarda Azərbaycan dilindəki saitlərin sayı indiki kimi doqquz olaraq göstərilməmişdir. O dövrdə fonetika məsələləri ərəb əlifbasının təsiri ilə yazılmışdır. Ərəb əlifbasında saitlər üç hərfi işarədən ibarət olduğundan müəlliflər də Azərbaycan dilində iki və ya üç saitin varlığından bəhs etmişlər. Həmin dövrlərdə çox zaman hərf və səs fərqləndirilməmiş, beləliklə, hərflərin sayı ilə səslərin sayı eyni göstərilmişdir.

XIX əsrdən başlayaraq, ziyalıların bir çoxunda ərəb əlifbasının Azərbaycan dili üçün yaramadığı fikri formalaşmışdı. Azərbaycanda əlifba islahatı uğrunda mübarizə Mirzə Fətəli Axundovla başlamış, sonralar bir çoxları tərəfindən davam etdirilmişdir.

1920-ci illərə qədər Azərbaycan dilçiliyində fonetikaya həsr edilmiş xüsusi elmi mənbəyə rast gəlmirik. Bəzi fonetika məsələləri də lüğət və qrammatika kitablarındakı əlavələrdə verilmişdir. Bu dövrdə dilçilik sahəsindəki tədqiqatçıların deyil, əsasən ədəbiyyat nümayəndələrinin fəaliyyəti diqqəti cəlb edir.

**I fəslin "1920-90-cı illərdə fonetika və fonologiyanın tədqiq dövrü"** adlı **2-ci paraqrafı 2 bənddən** ibarətdir. **"1920-70-ci illərdə Azərbaycanda fonetika və fonologiya problemlərinin tədqiqinin vəziyyəti"** adlı **1-ci bənddə** verilir ki, 1920-ci illərdə, yəni sovet

hakimiyyətinin qurulduğu ilk vaxtlar nəzəri dilçilik tətbiqi dilçiliklə müqayisədə az inkişaf etmişdir. Elmi mütəxəssislərin yoxluğundan Azərbaycan dilçiliyində daha çox praktik işlər əsas yer tutmuşdur. 1920-30-cu illərdə fonetika və fonologiya tədris-təlim məqsədilə tədqiq edilmiş, daha çox məktəb qrammatikaları və elmi-metodik əsərlər səviyyəsində öyrənilmişdir. Bu sahədə əsas tədqiqatlar XX əsrin 50-ci illərindən başlayır. Q.Ələkbərli, F.Kazımovun məqalələri xüsusilə diqqət çəkir. Bundan başqa, Q.Ələkbərli "Azərbaycan və rus dillərində vurğu" (1946) adlı namizədlik dissertasiyası yazıb müdafiə etmişdir.

Fonetika məsələləri haqqında ilk monumental tədqiqat əsərini Ə.Dəmirçizadə yazmışdır. Eləcə də B.Çobanzadə, M.Hüseynzadə, Ə.Əfəndizadə, T.Hidayətzadə, Z.X.Tağızadə, A.Qurbanov və başqaları fonetikanın nəzəri problemlərini araşdıran əsas müəlliflərdəndirlər. Fonoloji problemlər isə xüsusən kiçik elmi araşdırmalarda öz əksini tapmışdır.

**"1970-1990-cı illərdə Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin tədqiqi"** adlı **2-ci bənddə** qeyd olunmuşdur ki, 1970-ci illərdən başlayaraq fonetika və fonologiya sahəsində akademik səviyyədə görülmüş işlərin sayı artmış, yeni-yeni tədqiqat əsərləri yaranmışdır.

Bu dövrdə Azərbaycan dilinin fonemlər sistemi fundamental şəkildə tədqiq olunmuşdur. A.Axundov bu istiqamətdə iki kitab yazmışdır.

1970-ci illərdən etibarən təcrübi fonetika sahəsindəki işlər müvəffəqiyyətlə davam etmişdir. M.Qarayevanın "Müxtəlif sistemli dillərdə ara cümlələrin intonasiya, qrammatik xüsusiyyətləri" (1976), Ə.Cəfərovun "İngilis və Azərbaycan dillərində qarşılaşdırma-ziddiyyət əlaqəli tabesiz mürəkkəb cümlələrin intonasiya quruluşu" (1975) adlı dissertasiyaları buna misal ola bilər. Bu dövrdə Z.X.Tağızadənin "Eksperimental fonetikaya giriş" (1970), F.Ağayevanın "Şifahi nitqin sintaksisi" (1975), "Azərbaycan dilinin intonasiyası" (1978), F.Veysəllinin Z.Verdiyeva, F.Ağayeva ilə birlikdə yazdığı iki hissəli "Eksperimental fonetika" (1980, 1981) kitabları nəşr olunmuşdur.

F.Cəlilovun “Azərbaycan dilinin morfonologiyası” (1988) adlı kitabı da bu dövrdə nəşr olunan maraqlı əsərlərdəndir.

1980-ci illərdə kontrastiv fonetika termini tez-tez işlənməyə başladı. T.Hidayətzadənin “İngilis və Azərbaycan dillərində sonor samitlər” (1986), S.Tağıyevanın “Hecalanma və dilin quruluşu” (1986), F.Veysəllinin “Alman və Azərbaycan dillərində sintaqm” (1980), “Kontrastiv fonologiya məsələlərinə dair” (1986) kimi əsərləri məhs bu istiqamətdəki tədqiqatlara aiddir.

Fonetika və fonologiya problemlərinin tədqiqi tarixinə nəzər saldıqda görürük ki, bu dövrdəki tədqiqatlar olduqca çox və rəngarəngdir. Ümumilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanda digər sahələr kimi dilçilik də özünün inkişaf dövrünü yaşadı. Fonologiya və fonetika problemləri də Azərbaycan dilçiliyinin tərkib hissəsi kimi əsas tədqiqat sahələrindən olmuşdur. Bu dövrdə dil səsləri müxtəlif aspektdən, müxtəlif yaruslarla əlaqəli tədqiq olunmağa başlamış, fonetikada yeni tədqiqat istiqamətləri yaranmışdır. Sintaqmatik fonetika, sadə cümlə fonetikası, mürəkkəb cümlə fonetikası, morfonologiya və s. yeni tədqiqat obyektlərinə çevrilmişdir. Xüsusən fonoloji problemlərə həsr olunmuş irihəcmli əsərlər, eləcə də dissertasiyalar yaranmış, bu sahədə dilçi kadrların da sayı artmışdır.

**I fəslin 3-cü paraqrafı “Müstəqillik dövründə Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin öyrənilməsi”** adlanır. Müstəqillik dövründə dövlət səviyyəsində Azərbaycan dilçiliyinin inkişafına diqqət yetirilir. Bu fonetika və fonologiya istiqamətindəki tədqiqatlara da öz təsirini göstərir.

Müasir dövrdə H.Həsənov, F.Veysəlli, M.Yusifov, Q.Məşədiyev, B.Xəlilov, İ.Kazımov və s. kimi alimlərin xidmətlərini xüsusilə qeyd etmək lazımdır.

F.Veysəllinin “Fonetika və fonologiya məsələləri” (1993) əsərində dilin fonetik quruluşu və fonoloji sistemi müxtəlif dillərin materialları əsasında ardıcıl olaraq şərh olunmuşdur. Alimin üç cilddə yazmış olduğu “Struktur dilçiliyin əsasları” (2005) əsərinin I cildi bütövlükdə fonologiya məsələlərindən bəhs edir. F.Veysəlli

N.S.Trubeskoyun “Fonologiyanın əsasları” əsərini 2001-ci ildə Azərbaycan dilinə tərcümə edərək çap etdirmişdir.

Müasir Azərbaycan dilçiliyində orfoepiya ilə bərabər, orfofoniya termini də işlənməkdədir. F.Veysəllinin böyük bir işçi qrupla hazırladığı “Azərbaycan dilinin orfofoniya lüğəti” (2016) Azərbaycan dilçiliyi üçün yenilik oldu.

M.Yusifov “Azərbaycan dili fonetikasının əsasları” (2012) adlı əsərində fonem və onun funksionallığı, fonetikanın növləri, əhəmiyyəti, fonemlərin sistem və strukturu, fonetik vahidlər, fonemlərin təkamülü, sait və samitlərin fonomorfologiyası, sait və samitlərə aid keçidlər, fonetik tarazlıq, fonetik hadisələr, fonetik söz yaradıcılığı, heca və ritmik bölgü, vurğu, fonetik aktuallaşma kimi problemlərdən bəhs olunmuşdur.

Son dövrdə fonetika və fonologiyaya həsr edilmiş ən irihəcmli əsər Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun hazırlayıb nəşr etdirdiyi “Müasir Azərbaycan dili. I cild (Fonetika və fonologiya)” (2019) kitabıdır.

Azərbaycan dilçiyinin ən son nailiyyətlərinə baxanda fonetika və fonologiya sahəsindəki tədqiqatların xüsusi əhəmiyyət kəsb etdiyini görürük. Aparılmış tədqiqatların bir çoxunda nəticələr həm də eksperimental yolla əldə edilmişdir. Müasir dövrdə K.Alırzayeva, F.Aslanov, S.Zeynalova, L.Qurbanova, N.Hacıyeva, S.Cumayeva və b. bu sahədə tədqiqat aparan alimlərdəndir. Xüsusilə S.Zeynalova Azərbaycanda, eləcə də ölkədən kənarda tədqiqatla məşğul olmuş dilçilərdəndir. S.Zeynalovanın həm fəlsəfə doktorluğu, həm də elmlər doktorluğu dissertasiyaları fonetika və fonologiya sahəsində aparılan uğurlu tədqiqatlardan hesab edilir.

Dissertasiyanın **II fəsli “Azərbaycan dilçiliyində fonologiya məsələləri”** adlanır. Fəslin **“Azərbaycan dilçiliyinin əsas fonoloji problemləri”** adlı **1-ci paraqrafında** məlum olur ki, sovet dövründə bir çox Azərbaycan dilçiləri rus dilçiliyinin təsiri ilə fonologiya məsələlərini araşdırırdılar. F.Kazımov, S.Sadıqov, A.Axundov, Q.Ələkbərli kimi Azərbaycan dilçiliyinin nümayəndələri rus alimlərinin, xüsusən S.İ.Bernşteynin, L.R.Zinderin rəhbərliyi altında tədqiqat aparırdılar. Fonologiyanın tədqiqində rus dilçiliyi

Lenininqrad fonoloji məktəbi və Moskva fonoloji məktəbi olmaqla iki qütbə ayrılmışdı. Bu məktəblərin nümayəndələri arasında ciddi fikir ayrılıqları var idi. Leninqrad fonoloji məktəbinin davamçıları hesab edirlər ki, fonem tərkibini müəyyən etmək üçün həm alınma, həm də milli sözlərdən istifadə etmək lazımdır. Moskva fonoloji məktəbinin nümayəndələri isə düşünürdülər ki, fonem tərkibi yalnız rus dilinin öz sözləri əsasında müəyyənləşdirilməlidir. Azərbaycan dilçiliyi Azərbaycan dilinin fonetik tərkibinin imkanlarına görə bu məktəblərin funksional nəzəriyyəsinə əsaslanmışdır. Yəni Azərbaycan dilçiliyi fonoloji tədqiqat zamanı əsasən Azərbaycan dilininin xüsusiyyətlərini nəzərə almağa üstünlük vermişdir.

Fonologiyanın əsas tədqiqat obyekti fonemdir. Burada dilin fonoloji sistemi araşdırılır. Q.Kazımov yazır ki, fonologiyada danışıq səslərinin funksional cəhəti, fonetik vahidlər sistem şəklində öyrənilir.[1] F.Veysəlliyə görə, fonetika və fonologiya vahid elmin müxtəlif aspektləridir: *"Fonetika akustik, artikulyator və perseptiv tədqiqatları müasir elektro-akustik avadanlıqların və metodların köməyi ilə təhlildən sonra dəqiq faktları aşkar edərək fonologiyanın ixtiyarına verir, fonologiya da onlara söykənərək dilin fonoloji sistemini müəyyənləşdirmək üçün onlara linqvistik şərh verir. Bunlar bir elmin qoşa qanadlarıdır".*[2] Gördüyümüz kimi, F.Veysəlli fonetikanı fonologiyadan ciddi mənada ayrılmasını qəbul etməmişdir.

Dünya dilçiliyində olduğu kimi, Azərbaycan dilçiliyində də hesab edilir ki, fonem iki istiqamətdə (fonetik və fonoloji) öyrənilməlidir. Eyni zamanda Azərbaycan dilçiliyində fonologiya problemlərini daha çox fonetikadan ayırmadan tədqiq etmişlər. Azərbaycan dilçiliyində hər hansı bir danışıq səsinin fonoloji təhlili ilə fizioloji təhlili birgə verilmişdir. Fonologiya danışıq səsinin

---

[1] Müasir Azərbaycan dili (Fonetika və fonologiaya). I cild / M.Z.Nağısoylu, F.Y.Veysəlli, İ.B.Kazımov [və b.]. – Bakı: Elm, – 2019. – s. 32.

[2] Veysəlli, F.Y. Azərbaycan dilinin funksional qrammatiksı: fonemika və morfemika. I cild. / F.Y.Veysəlli. – Bakı: "Prestige çap evi", – 2014. – s. 153.

funksional keyfiyyətini öyrənirsə, fonetika da akustik, artikulyator xüsusiyyətlərini öyrənir.

Funksional fonetika sahəsindəki elmi işlərin vəziyyəti F.Veysəllini qane etmir. F.Veysəlli hələ də Azərbaycan dilinin fonetik biçiminin və fonoloji sisteminin ümumdilçilik metodları və nəzəriyyələri baxımından hələ lazımi səviyyədə öyrənilmədiyini düşünür və onun fikrincə, fonem tərkibinin müəyyənləşdirilməsində istifadə olunan kriteriyalar qənaətbəxş deyildir.

Azərbaycan dilçiliyində fonemlə bağlı problemlər fonemə verilən təriflərin məzmunundakı fərqliliklərdən başlayır. Fonemin danışıq səsindən fərqi, fərqləndirici xüsusiyyətləri, Azərbaycan dilinin fonemlər sisteminin tərkibinin müəyyənləşdirilməsi aktual problemlərdən olmuşdur.

**II fəslin 2-ci paraqrafı "Sait fonemlərin təsnifi"** adlanır. 1920-30-cu illərdə saitlər haqqında fikirlər dərslik qaydaları normalarına uyğun verilmişdir. Bu dərsliklərdə Azərbaycan dilində doqquz sait səsin olduğu göstərilmiş, onlar qalın-incə, dodaqlanan-dodaqlanmayan kimi növlərə ayrılmış, dilin şaquli vəziyyətinə görə təsnifindən danışılmamışdır. Saitlərin açıq və qapalı növləri haqqında yalnız 1940-cı illərdən sonra nəşr olunan dərsliklərdə bəhs edilmişdir. Saitlər haqqında ilk dəfə geniş şəkildə Ə.Dəmirçizadənin "Sövtiyyat" (1947) əsərində bəhs olunmuşdur. O, burada Azərbaycan dilinin saitlərini dörd prinsip üzrə təsnif etmiş, uzun sait, qısa sait problemini araşdırmışdır. F.Kazımov 1952-ci ildə nəşr etdirdiyi "Azərbaycan dilinin sait fonemlər sistemi" məqaləsində sait səsləri funksionallıq baxımından da tədqiq etmişdir. A.Axundov da saitləri fonoloji istiqamətdə araşdırmış, eləcə də onların statistik təhlilini vermişdir. Onun fonoloji təhlilindən bu ümumi nəticəni çıxarmaq olar ki, Azərbaycan dilinin sait fonemləri aşağıdakı fərqləndirici xüsusiyyətlərə malikdir: a) açıqlıq-qapalılıq, b) ön sıralıq-arxa sıralıq, c) dodaqlanmaq-dodaqlanmamaq, d) qısalıq-uzunluq, e) təkavazlılıq-cütavazlılıq.

**II fəslin 3-cü paraqrafı "Samit fonemlərin təsnifi"** adlanır. Bu paraqrafda samitlərin xronoloji ardıcıllıqla alimlər tərəfindən əldə edilmiş təsnifatları verilmişdir. Samit fonemlər həm fonoloji, həm

fizioloji-akustik, həm də statistik cəhətdən təsnif edilmişdir. Azərbaycan dilçiliyində samitlər Ə.Dəmirçizadə, F.Kazımov, A.Axundov, M.Yusifov və başqaları tərəfindən tədqiqata cəlb olunmuşdur.

Ə.Dəmirçizadə hesab edir ki, samitlərin bir çoxu küy əsasında, müəyyən bir qismi isə küy və avaz əsasında formalaşır.

T.Hidayətzadə "Azərbaycan və ingilis samit fonemlərinin müqayisəli surətdə öyrənilməsi" (1961) məqaləsində Azərbaycan dilinin samit fonemlərini beş prinsipə əsaslanaraq təsnif etmişdir. Həmin prinsiplər bunlardır: fəal danışıq üzvlərinin iştirakına görə; əmələ gəlmə yerinə görə; əmələ gəlmə üsuluna görə; yumşaq damağın vəziyyətinə görə; səs tellərinin iştirak edib-etməməsinə görə.

A.Axundov samit fonemlərin fizioloji-akustik təsnifini ümumi fonetika ənənəsinə uyğun olaraq fəal danışıq üzvünün iştirakına (dodaq samitləri, dil samitləri, udlaq samiti) görə mövcud ardıcıllıqla verilmişdir.

Samit fonemlərin statistik cəhətdən də təhlil edən A.Axundov aşağıdakı nəticələri əldə etmişdir: 1) Azərbaycan dili samitləri üçün, ən əsas mövqe söz ortasıdır; 2) sözün əvvəlində ğ və $n_{ı}$ səsləri işlənmir, söz sonunda samitlərin işlənməsi isə məhdud dairədədir; 3) Azərbaycan dilində sözün əvvəli və ortası dil, kipləşən, cingiltili, küylü və ağız samitləri üçün daha çox səciyyəvidir; 4) sözün sonunda sonor samitlərin işlənməsinə daha çox təsadüf olunur; 5) sonor samitlər söz kökləri ilə müqayisədə şəkilçilərdə çox işlənməkdədir.

A.Axundov samitlərin fonoloji təhlili ilə bağlı araşdırmasında bu nəticəyə gəlmişdir ki, hər bir dildə olduğu kimi, Azərbaycan dilinin samit fonemlərinin fərqləndirici əlamətləri mövcuddur. Həmin fərqləndirici əlamətlər isə bunlardır: əmələ gəlmə yerinə görə (dodaqlılıq, dilönülük, dilortasılıq, dilarxasılıq, udlaqlıq), əmələ gəlmə üsuluna görə (kipləşməlik, novluluq, titrəklik, kipləşməlik-novluluq, kipləşməlik-süzgünlük, təkkeçidlilik, cütkeçidlilik), səs tellərinin iştirakına görə (karlıq, cingiltililik), yumşaq damağın vəziyyətinə görə (burunluluq, ağızlılıq).

**II fəslin “Azərbaycan dilinin fonemlər sistemi ilə bağlı mübahisəli məsələlər”** adlı **4-cü paraqrafında** müasir dövrdə Azərbaycan dilçiliyində fonemlə bağlı aktuallığını saxlayan problemlər tədqiqata cəlb olunmuşdur. Tədqiqatlarda zaman-zaman fonemlərin sayı fərqli göstərilmişdir. M.Hüseynzadə Azərbaycan dilində 23, Ə.Dəmirçizadə və T.Hidayətzadə 25, F.Kazımov 39 samit fonemin olduğunu bildirmişlər. A.Axundov “Azərbaycan dilinin fonemlər sistemi” kitabında müasir Azərbaycan dilində 18 sait, 26 samitdən, bir sözlə, 44 fonemdən bəhs etmişdir. Alim “Azərbaycan dilinin fonetikası” kitabında isə yazmışdır ki, Azərbaycan dilinin fonem tərkibində 40 müstəqil fonem (15 sait, 25 samit) vardır. Əvvəlki kitabında haqqında bəhs etdiyi “ou”, “öü” diftonqlarından, yalnız şəkilçilərdə işləndiyini qeyd etdiyi “qapalı sait” və “açıq sait”, “qarışıq samit” fonemlərindən ikinci dəfə danışmamışdır. Bunun səbəbini bu cür izah edir ki, həmin fonemlərin müstəqil səs cildi olmadığından onları müstəqil fonemlər siyahısından çıxarmışdır. A.Axundovun siyhısında $n_1$ samiti də vardır. $N_1$ səsi 1930-1940-cı illərdə latın qrafikalı əlifbada aparılan dəyişikliklər nəticəsində əlifbadan çıxarılmışdır.

Azərbaycan dilçiliyində fonemlərlə bağlı aşağıdakı problemlər öz aktuallığını saxlayır və mübahisə yaradır:

1) Azərbaycan dilində uzun saitlərin fonem hesab edilməsi məsələsi;

2) Azərbaycan dilində diftonqların fonem hesab edilməsi məsələsi;

3) Azərbaycan dilində geminatların fonem hesab edilməsi məsələsi.

M.Hüseynzadə, Ə.Dəmirçizadə, eləcə də F.Veysəlli uzun saitləri fonem adlandırmamışlar. Ə.Dəmirçizadənin fikrinə görə, Azərbaycan ədəbi dilində tam sabitləşmiş və fonem keyfiyyəti kəsb etmiş uzun və qısa saitlər yoxdur. Hər iki alim (M.Hüseynzadə, Ə.Dəmirçizadə) uzanmanın dialektlərə xas xüsusiyyət olduğu iddiasını irəli sürmüşlər.

Bəzi alimlərin fikrinə görə, uzun saitlər məna fərqləndirilməsinə səbəb olduqları üçün fonem hesab edilə bilər.

Q.Ələkbərli, F.Kazımov və A.Axundov uzun saitləri müstəqil fonem adlandırmışlar. Q.Ələkbərli saitlərdən yalnız üçünü (ə, e, ö) uzun hesab etmişdir. F.Kazımova görə, Azərbaycan dilində 15 sait fonem vardır və bunlardan doqquzu qısa, altısı isə uzundur. A.Axundov uzun saitlərin alınma olmasını səbəb göstərərək onları Azərbaycan dilinin fonemləri sırasında görməyən dilçilərin fikrinə öz qəti etirazını bildirmişdir: "*Birincisi, fonemin müəyyən olunmasında mənşə məsələsinin əhəmiyyəti yoxdur, ikincisi, hətta əhəmiyyəti olsa belə, Azərbaycan dilindəki uzun sait fonemlər mənşəcə alınma sözlərdə işlənməsinə baxmayaraq, Azərbaycan dilinin öz fonetik quruluşunun məhsuludur*".[3] Alimin ümumi izahından bu nəticəyə gəlmək olur ki, müasir fonologiyanın tələbləri cəhətdən bir saitin fonemliyi onun mənşəyi ilə deyil, dilin müasir vəziyyətində oynadığı rol ilə izah olunmalıdır.

Diftonqlar məsələsində də dilçilər arasında fikir ayrılıqları vardır. F.Kazımov, M.Şirəliyev və A.Axundov Azərbaycan dilində diftonqun varlığını qəbul etdikləri halda, Ə.Dəmirçizadə, F.Veysəlli, B.Xəlilov və başqaları Azərbaycan dilində bütün səsləri təkavaz adlandırmışlar. Ə.Dəmirçizadə məxrəc sabitliyinə görə saitləri təkavaz (monoftonq), cütavaz (diftonq) olmaqla iki yerə ayırmış, cütavazlılığı da dialektlərə aid xüsusiyyət kimi izah etmişdir. N.Məmmədov isə bu qənaətə gəlmişdir ki, Azərbaycan ədəbi dilində diftonq olmasa da, dialekt və şivələrdə diftonqlaşma hadisəsi vardır.

A.Axundova görə, Azərbaycan dilində diftonqlar cəmi 113 sözdə özünü göstərir. O, öü diftonqu ilə işlənmiş 57 (döülət, köürək, köüsər, köüşən, nöübə, töübə və s.), ou fonemi ilə 56 söz (ouqat, ousana, qouğa, douğa, douşan, nouruz və s.) vermişdir.[4]

F.Kazımov Azərbaycan dilindəki geminat (qoşalaşmış samit) fonemləri müstəqil fonemlər hesab etsə də, A.Axundov, A.Ələkbərov, F.Veysəlli bununla razılaşmırlar. A.Axundov kimi A.Ələkbərov da hesab edir ki, fonomorfoloji meyarlara görə heç bir

---

[3] Axundov, A.A. Azərbaycan dilinin fonemlər sistemi / A.A.Axundov. – Bakı: Maarif, – 1973. – s. 71.

[4] Yenə orada. – s. 138-139.

geminat müstəqil fonem ola bilmir. Geminatları uzun samitlər adlandıran F.Veysəlli onların fonem kimi mövcudluğunu qəbul etməmişdir: "*Uzun saitlər haqqında yuxarıda dediyimiz sözləri bura da aid etmək olar. /əmək/ və /əm+mək/ sözlərini qarşılaşdırmaq qəti düzgün deyildir. Onlardan birincisi isim, ikincisi isə feildir. Birincisi tərkib hissələrinə bölünmür, ikincisi isə strukturca iki morfemdən ibarətdir: /əm/+/mək/*".[5] F.Veysəllinin fikri tamamilə doğrudur. Əmmək-əmək, addım-adım, sallaq-salaq tipli sözləri qarşılaşdırmaqla, oradakı geminatı fonem hesab etmək düzgün deyildir. Çünki burada morfoloji sərhəd vardır və Azərbaycan dilində geminat samitlər bir morfemin göstəricisi ola bilmir.

Dissertasiyanın **III fəsli "Azərbaycan dilçiliyində fonetika problemlərinin tədqiq səviyyəsi"** adlanır. **III fəslinin "Azərbaycan dilçiliyində ahəng qanununa münasibət"** adlı **1-ci paraqrafında** qeyd edilmişdir ki, Azərbaycan dilçiliyində ən çox araşdırılan hadisə ahəng qanunudur. Bir çox elmi ədəbiyyatlarda ahəng qanunu sinqarmonizm, həmahəngləşmə, harmoniya, uyuşma da adlandırılmışdır. B.Çobanzadə onun "ahəng qanunu" adlandırılmasına etiraz etmişdir. Müəllif ahəng qanunu terminini başqası ilə əvəz etmək haqqında danışsa da, özü konkret fikir irəli sürməmişdir. Adın hadisəyə uygun gəlmədiyini göstərən müəllif bunun səbəbini də açıqlamır. M.Yusifov isə Azərbaycan dilçiliyində hamının eyni adda qəbul etdiyi ahəng qanununu saitlərin fonetik tarazlığı – ardıcıllığı adlandırmağı daha düzgün hesab edir.

Ahəng qanunu Azərbaycan dilçiliyində zaman-zaman tədqiqata cəlb olunsa da, lakin hələ də onun hamı tərəfindən qəbul edilmiş elmi təsvirinə rast gəlmək mümkün deyildir. Xüsusən bu qanunun növləri məsələsində vahid fikir yoxdur. Ə.Dəmirçizadə və M.Hüseynzadə ahəng qanununun üç növündən (saitlərin ahəngi, saitlərlə samitlərin ahəngi, samitlərin ahəngi), A.Axundov samitlərin ahəngini qəbul etməyərək iki növündən (saitlərin ahəngi, saitlərlə samitlərlərin

---

[5] Müasir Azərbaycan dili (Fonetika və fonologiaya). I cild / M.Z.Nağısoylu, F.Y.Veysəlli, İ.B.Kazımov [və b.]. – Bakı: Elm, – 2019. – s. 236-237.

ahəngi) bəhs etmişdir. Sonrakı dövrdə alimlərin əksəriyyətinin sözügedən problemin həllində Ə.Dəmirçizadəyə istinad etməsini müşahidə edirik. Həm H.Həsənov, həm də B.Xəlilov ahəng qanununu Ə.Dəmirçizadə kimi üç növə ayırmışlar. M.Yusifov və F.Cəlilov isə yalnız saitlərin ahəngini qəbul etmişlər.

**III fəslin 2-ci paraqrafı "Fonetik hadisə və əvəzlənmələr"** adlanır. Azərbaycan dilçiliyində hadisə termini qanun sözünə nisbətən daha çox işlədilmişdir. Dildəki sözlərin fonetik qabığında elə dəyişmələr baş verir ki, bunlar hələlik qanun şəklini almamışdır və fonetik hadisə olaraq qalmaqdadır.

Hazırda ənənəvi olaraq hamı tərəfindən qəbul edilmiş fonetik hadisələr bunlardır: uyuşma (assimilyasiya), səs fərqləşməsi (dissimilyasiya), səsartımı, səsdüşümü, səslərin yerdəyişməsi. A.Axundov məhdud dairədə işlənən fonetik hadisələrə nəfəsləşmə, samitləşmə, sonorlaşma, diftonqlaşma, qapalılaşma və "Gottol stop"u aid edir. Alim sonuncu hadisəni Azərbaycan dilində örtüsüz qapalı təkhecalı sözlərdə müşahidə etdiyini yazır. O, farinqalizasiya termini ilə də adlandırılan "Gottol stop" hadisəsinin Azərbaycan dilindəki qarşılığını verə bilməmişdir. Ondan əvvəlki və ondan sonrakı dilçilik ədəbiyyatlarında belə problemə rast gəlmirik. AMEA Nəsimi adına Dilçilik İnstitutunun nəşr etdirdiyi "Müasir Azərbaycan dili" kitabının I cildində fonetik hadisə və əvəzlənmələr adlı bölməni A.Axundov işləmişdir. Alim bu kitabda "Gottol stop" hadisəsinin adını çəkmir.

Ümumiyyətlə, Azərbaycan dilçiliyindəki fonetik hadisə və qanunlardan hansının qanun, hansının hadisə olması mübahisə doğuran problemlərdəndir. A.Axundov heca ilə bağlı fonetik hadisələrə dodaqlanma, qalınlaşma, incələşmə, qısalma, dodaqlanmanın itməsi (delabializasiya), karlaşmanı aid etmişdir. Alim dodaqlanma, qalınlaşma və incələşmədən ahəng qanununun təzahür formaları kimi saitlərlə samitlərin ahəngi bölməsində bəhs etmiş, bu səbəbdən də yenidən şərhə ehtiyac duymamış, sadəcə qısalma, dodaqlanmanın itməsi və karlaşma hadisələrinin izahını vermişdir. F.Cəlilov isə karlaşmanı fonetik qanun adlandırmışdır. M.Yusifov assimilyasiya, səsartımı, səsdüşümünü qanun, yerdəyişmə

və dissimilyasiyanı tam qanun halında inkişaf etməmiş hadisələr hesab etmişdir.

Dildə fonemlər bir-birini əvəz etdikdə məna fərqi yaranarsa, bu fonematik əvəzlənmə, məna fərqi yaranmazsa, fonetik əvəzlənmə baş verir. Tədqiqatlar göstərir ki, Azərbaycan dili üçün xarakterik olan fonetik əvəzlənmələrdir.

Ümumi dilçilikdə səslərin iki cür dəyişməsi (spontan dəyişmələr və kombinator dəyişmələr) vardır. "*Qeyd olunanlardan bu nəticəyə gəlirik ki, Azərbaycan dilindəki fonetik hadisələr kombinator dəyişmələrə aiddir"*.[6] Belə ki, Azərbaycan dilndəki fonetik əvəzlənmələr zamanı sözdə forma dəyişsə də, məna dəyişməz olaraq qalır.

**III fəslinin 3-cü paraqrafı "Azərbaycan dilçiliyində hecanın təsviri"** adlanır. Burada Azərbaycan dilçiliyində heca probleminin həlli məsələləri öz əksini tapmışdır.

Dünya dilçiliyində heca ilə bağlı bir çox nəzəriyyələr vardır. Bunlara əzələ gərginliyi nəzəriyyəsi, ekspirator nəzəriyyəsi, hecanın sonor nəzəriyyəsini aid etmək olar. Ekspirator nəzəriyyəsinə görə, heca nəfəsvermə zamanı yaranır. Hecalanmada saitlərin iştirakı mütləqdir. Azərbaycan dilçiliyində hecanın müəyyənləşdirilməsində ekspirator nəzəriyyəsi əsas götürülür. Dünya dillərinin çoxunda, o cümlədən Azərbaycan dilində heca sait fonem hesabına formalaşır.

Dilçilik elmimizdə heca ilə bağlı tədqiqatlar Azərbaycan dilinin materialları üzərində aparılmış, əsasən bu dilin hecalanma xüsusiyyətləri öyrənilmişdir. Müəyyən edilmişdir ki, heca anlayışı ilə hecalanma anlayışı eyni məsələ deyil. Dünyadakı dillərin morfoloji quruluşları müxtəlif olduğu kimi, dillərin səs tərkibi də bir-birindən fərqlidir. Buna görə də dillərin hecalanma prinsipləri özünəməxsusdur. Heca anlayışı bütün dillərdə ola bilər, lakin bu hecaların tipləri, növləri tamamilə ayrı-ayrıdır.

Heca ilə bağlı əsas problemlərə hecanın növləri, tipləri, heca tiplərində sait və samitlərin rolu, heca üçbucaqları, səslərin güc

---

[6] Hacızadə X.T. Azərbaycan dilçiliyində fonetik hadisələrin tədqiq tarixi haqqında (1920-60-cı illər) // – Naxçıvan : "Naxçıvan" Universitei, – 2018. №3, – s. 133-139.

dairəsinə görə heca tipləri, nitq axınının hecalanma meyarı kimi məsələlər aiddir.

Azərbaycan dilçiliyində hecanın növləri məsələsində bir yekdillik müşahidə etmiş olduq. Belə ki, heca növləri müxtəlif terminlərlə qeyd olunsa da, Azərbaycan dilçiliyində bu növlər hecanın hansı səslə başlayıb, hansı səslə bitməsindən asılı olaraq müəyyən edilir. Hecanın tipləri isə onun tərkibindəki fonemlərə əsasən müəyyən edilmişdir.

Dissertasiyanın **III fəslinin 4-cü paraqrafı "Azərbaycan dilçiliyində əsas fonosemantik problemlər (vurğu və intonasiya)"** adlanır. **Bu paraqraf "Vurğu problemi"** və **"İntonasiyanın tədqiq sferaları"** adlı **iki bəndi** özündə birləşdirir.

**"Vurğu problemi"** adlı bənddə qeyd edilir ki, Azərbaycan dilçiliyində vurğu məsələsinə həsr olunmuş tədqiqatlarda vurğunun xarakter xüsusiyyətləri, göstəriciləri və s. öyrənilmişdir. Yazılmış tədqiqatlarda vurğu, xüsusən türk dilləri hüdudlarında şərh olunmuşdur. Belə ki, türk dilləri ailəsinə daxil olan bu və ya digər dildə mövcud olan vurğu və onun göstəricilərindən bəhs edilərkən türk dillərinin ümumi və xarakter xüsusiyyətləri də nəzərə alınmışdır. Azərbaycan, eləcə də türk dillərinə məxsus xüsusiyyətlərdən olan vurğunun xarakteri, xüsusən onun ekspirator (güclü) səciyyəsindən danışılmışdır.

Azərbaycan dilçiliyində vurğunun növlərindən söhbət gedərkən, burada sözün sonundakı heca vurğusu və ekspirator, yəni güclü vurğu nəzərdə tutulur. Yazılmış elmi ədəbiyyatlarda və mövcud olan tədqiqatlarda sözə, söz birləşməsinə, mürəkkəb sözlərə, eləcə də cümləyə aid vurğudan bəhs olunduqda, məhz son heca və ekspirator vurğunun səciyyəvi xüsusiyyətləri şərh edilmişdir. Bunlarla yanaşı, vurğu qəbul etməyən şəkilçilərdən də bəhs olunmuşdur ki, bu da vurğunun son hecaya düşmədiyini izah etmək üçün olduqca vacibdir.

Mürəkkəb sözlərdə, həmçinin söz birləşmələrində vurğunun yeri məsələsi ilə əlaqədar ənənəvi üsulla aparılan tədqiqatlarda da, ümumiyyətlə, vahid fikrin olmaması müşahidə edilməkdədir. Burada da fikir ayrılığı bu vahidlərin bir və ya iki vurğulu olması üzərində

davam edir. Gah mürəkkəb sözlərdəki komponentlərin bir vurğulu olduğu göstərilmiş, gah da "əsas vurğu", "birləşdirici vurğu", "baş vurğu", "əlavə vurğu" terminləri ilə izah olunmuşdur.

**"İntonasiyanın tədqiq sferaları"** bəndində aydın olur ki, Azərbaycan dilçiliyində intonasiya əsasən F.Ağayeva, N.Mehdiyev, C.Axundov, A.Axundov tərəfindən tədqiq edilmişdir. A.Axundov problemdən "Sintaqmatik fonetika" daxilində söz açmışdır. Ümumiyyətlə, Azərbaycan dilçilərinin fikrincə, bu hadisə cümlə ilə bağlıdır. Buna görə də intonasiya "cümlə fonetikası"nın problemlərindən biri kimi tədqiq olunmuşdur. İntonasiyanın tədqiqində eksperimental nəticələr də əldə edilmişdir.

Müasir dövrdə intonasiya müxtəlif istiqamətlərdə, dilçiliyin digər sahələri ilə birgə tədqiq olunmuşdur. D.Yunusovun "İntonasiyanın bəzi xüsusiyyətləri haqqında" (2017) məqaləsində sadə cümlənin intonasiya xüsusiyyətləri araşdırılmışdır. F.Veysəlli cümlə fonologiyası, N.Hacıyeva fonosemantika, İ.Kazımov isə fonosintaksis məsələlərinin daxilində intonasiya ilə bağlı problemləri araşdırmışlar. Azərbaycan dilçiliyində intonasiyaya fono-qrammatik vasitə, sintaktik və fonetik hadisə kimi yanaşılmışdır.

**Aparılan araşdırma və təhlillərə əsasən aşağıdakı nəticələr əldə olunmuşdur:**

1. Azərbaycan dilçiliyində fonetika və fonologiya problemlərinin tədqiqi tarixi üç dövrə ayrılmalı, qədim dövrdən 1920-ci illərə qədərki dövr birinci mərhələyə, sovet dövrü ikinci mərhələyə, müstəqillik dövrü isə üçüncü mərhələyə aid edilməlidir.

2. 1920-ci illərə qədər Azərbaycan dilçiliyində fonetika məsələləri praktik səciyyə daşıdığı üçün əsasən hərflərin yazılışı və tələffüzündən bəhs olunmuş, lakin səslə hərfin əsas mahiyyətini izah edə bilməmişlər. Bu dövrdə Azərbaycan dilçiliyində fonetikaya həsr edilmiş xüsusi elmi əsərə rast gəlmirik. Bəzi fonetika məsələləri də lüğət və qrammatika kitablarındakı əlavələrdə verilmişdir. Tədqiqat göstərir ki, tətbiqi sahə nəzəri sahədən əvvəl yaranmış və daha geniş inkişaf etmişdir.

3. 1920-ci illərdə, yəni sovet hakimiyyətinin qurulduğu ilk vaxtlar yenə də nəzəri dilçilik tətbiqi dilçiliklə müqayisədə az tədqiq

edilmişdir. Bunun ilkin səbəbi elmi istinad bazasının olmaması və elmi mütəxəssislərin çatışmazlığı idi. O dövrdə Azərbaycan dilçiləri fonetika sahəsində daha çox praktik işlərlə məşğul olmuşlar. Daha çox fonetika məsələləri tədqiqata cəlb olunmuşdur, 1940-50-ci illərdə fonologiya sahəsində ilk kiçikhəcmli elmi əsərlər yaransa da, ciddi tədqiqatlar bir qədər sonrakı dövrə aiddir. Bu illərdə fonetika sahəsində əsas tədqiqatlar Ə.Dəmirçizadəyə məxsusdur.

4. 1970-ci illərdə fonetika və fonologiyaya aid tədqiqatlar öz akademik səviyyəsi ilə diqqəti cəlb edir. Azərbaycan dilinin fonemləri sistemli şəkildə fundamental tədqiq olunmuşdur. Azərbaycan dilçiliyi üçün "Sintaqmatik fonetika", "Sadə cümlə fonetikası, "Mürəkkəb cümlə fonetikası" kimi yeni mövzular yaranmış, dil materialları müqayisəli və təcrübi yolla araşdırılmışdır. Bu dövrdə Azərbaycan dilinin morfonologiyasının əsası qoyulmuş, dil səsləri müxtəlif aspektdən, müxtəlif yaruslarla əlaqəli tədqiq olunmuşdur. Fonetika və fonologiya istiqamətində tədqiqat aparan dilçi alimlərin sayı artmışdır.

5. 1990-cı illərdən sonra Azərbaycan dilçiliyində fonetika və fonologiya üçün də yeni dönəm başladı, o, sovet ideologiyasının təsirindən qurtulmuş oldu. Müstəqillik dövründə dövlət səviyyəsində Azərbaycan dilçiliyinin inkişafına diqqət yetirildiyini görürük. Bu dövrdə başqa dillərlə Azərbaycan dili materiallarının müqayisəsindən bəhs edən tədqiqatlar üstünlük təşkil edir. Ənənəvi fonetika məsələləri ilə yanaşı, funksional qrammatika, fonosemantika, fonoüslubiyyat, fonosintaksis məsələləri tədqiqata cəlb olunmuş, eksperimental tədqiqatlar həm ölkədə, həm ölkədən kənarda aparılmışdır. Fonetika və fonologiya istiqamətində dünya dilçiliyindən Azərbaycan dilinə tərcümələr olunmuş, ilk dəfə "Azərbaycan dilinin orfofoniya lüğəti"i (2016) çap edilmişdir.

6. Azərbaycanda fonologiya problemləri daha çox fonetikadan ayrılmadan tədqiq edilmiş, hər hansı bir danışıq səsinin fonoloji təhlili ilə fizioloji təhlili birgə verilmişdir. Azərbaycan dilçiliyində fonem probleminə yanaşmada rus dilçiliyinin təsiri hiss olunmaqdadır.

7. Azərbaycan dilçiliyində həm sait, həm də samit fonemlər təsnif edilmişdir. Fonemlər daha çox fizioloji cəhətdən tədqiq olunmuşdur. Azərbaycan dilinin fonemlərinin sayında, təsnifatlarada müxtəliffikirlilik vardır. Geminatlar, uzun saitlər və diftonqların fonem hesab edilməsi ən mübahisəli məsələlərdəndir və problem həllini tapmamışdır.

8. Azərbaycan dilçiliyində ahəng qanununun hamı tərəfindən qəbul edilmiş elmi təsvirinə rast gəlmək mümkün deyildir. Xüsusən bu qanunun növləri məsələsində vahid fikir yoxdur. Azərbaycan dilçiliyində fonetik hadisə və qanunlardan hansının fonetik hadisə, hansının qanun olması mübahisəli problemlərdəndir.

9. Heca ilə bağlı əsas tədqiqatlara, xüsusən hecanın tipləri və növlərinin öyrənilməsi aiddir. Azərbaycan dilçiliyində heca növləri hecanın hansı səslə başlayıb, hansı səslə bitməsindən asılı olaraq müəyyən edilir.

10. Azərbaycan dilçiliyində vurğunun növləri, xarakteri, xüsusən heca vurğusunun yerinin müəyyənləşdirilməsi vurğu ilə bağlı əsas tədqiq olunan problemlərdən olmuşdur.

11. Azərbaycan dilçiliyində intonasiyaya fono-qrammatik vasitə, sintaktik və fonetik hadisə kimi yanaşılmış, daha çox "sintaqmatik fonetika", "cümlə fonetikası" daxilində tədqiq olunmuşdur.

12. Yeni orfoepiya və vurğu lüğəti tərtib olunmalıdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc edilmiş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Azərbaycan dilinin fonetikasının tədqiq tarixindən // "Heydər Əliyev 87". Elmi-praktik konfransın materialları. Naxçıvan Müəllimlər İnstitutu, – Naxçıvan: Məktəb, – 05 may, – 2010, – s. 57-60.
2. Ahəng qanununun tədqiqinə dair // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2010. №2, – s. 157-160.
3. Azərbaycan dilçiliyində vurğunun tədqiqi məsələlərinə dair // "Azərbaycanın inkişaf strategiyası və aktual elmi

problemlər" mövzusunda Respublika Elmi Konfransının materialları (I hissə). – Lənkəran: Lənkəran Dövlət Universiteti, – 2011, – s. 146-148.

4. Sait səslərin təsnifi tarixindən // – Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri, – 2011. №2, – s.74-78.

5. Sait əvəzlənmələri haqqında // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. – 2011. №2, – s. 180-185.

6. Azərbaycan dilçiliyində qohum olmayan dillərin müqayisəli fonetika məsələləri // – Bakı: Dil və ədəbiyyat, – 2011. №4 (80) – s. 93-96.

7. Azərbaycan dilinin fonetikası tarixi / – Naxçıvan: Naxçıvan Özəl Universiteti, proqram, – 2011. – 6 s.

8. Azərbaycan dilçiliyində fonem problemi // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. – 2012. №1, – s. 166-171.

9. Ə.Dəmirçizadənin Azərbaycan dilinin fonetikası ilə bağlı tədqiqatlarına dair // – Bakı: Filologiya məsələləri, – 2012. №8, – s. 32-36.

10. Azəbaycan dilinin fonetikası və fonologiyasının tədqiq tarixi haqqında (1920-ci ildən 1960-cı illərə qədər) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2012. №1, – s. 128-132.

11. XX əsrin ikinci yarısında Azərbaycan dilçiliyində fonetika və fonologiya məsələləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2012. №3, – s. 146-153.

12. Azərbaycan dilçiliyində fonologiyanın yaranmasında A.Axundovun rolu // – Bakı: Filologiya məsələləri, – 2012. №7, – s. 29-34.

13. B.Çobanzadənin Azərbaycan dilinin fonetikası ilə bağlı tədqiqatlarına dair // Azərbaycanşünaslığın aktual problemləri. III Beynəlxal elmi konfransın materialları. Bakı Slavyan Universiteti: – 2-5 may, – 2012, – s. 240-244.

14. Prosodik problemlərin tədqiqinə dair // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2014. №5, – s. 128-132.

15. О Вопросах исследования согласных звуков азербайджанского языка // – Павлодар: Вестник Инновационного Евразийского Университета, – 2014. №1, – с. 119-123.

16. Azərbaycan dilinin fonemlər sistemi ilə bağlı bəzi mübahisəli məsələlər // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2016. №6, – s. 45-50.

17. F.Veysəllinin fonetik və fonoloji problemlərin həllindəki tədqiqatlarına dair // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2018. №1, – s. 154-160.

18. Azərbaycan dilçiliyində fonetik hadisələrin tədqiq tarixi haqqında (1920-60-cı illər) // – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi əsərləri, – 2018. №3, – s. 133-139.

19. Azərbaycan dilinin fonologiyası tarixi / – Naxçıvan: "Naxçıvan" Universiteti. Proqram, – 2018. – 12 s.

20. Исследование вопросов фонетики до начала XX века в Азербайджанском языкознании // "Языки и культуры народов России и мира". Международная научная коференция. – Махачкала: АЛЕФ, – 19-21 сентября, – 2019, – с.149-154.

21. Afad Qurbanovun Azərbaycan dilinin fonetikası tarixində rolu // Müasir dilçiliyin aktual problemləri. Beynəlxalq konfransın materialları, – Bakı: ADPU, – 6-7 iyin, – 2019, – s. 66-68.

22. About phonosemantics of the text // – Drohobych: Humanities science current issues: İnteruniversity collection of Drohobych İvan Franko State Pedagogical University Young Scientists Research Papers, – 2020. Volume I, – p. 77-81.

23. Fonetika məsələlərinin tədrisinə dair // Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər – 2020. Respublika elmi-praktik konfransın materialları. – Naxçıvan: Məktəb, – 21 may, – 2020, – s. 216-219.

24. Naxçıvanlı dilçi alimlərin fonetika problemləri ilə bağlı tədqiqatları haqqında // Naxçıvan: "Mədəniyyətlərin qovuşduğu məkan", Beynəlxalq elmi konfransın materialları. – Naxçıvan: Əcəmi, – 22-23 oktyabr, – 2020, – s. 339-344.

25. Sözün semantikasında fonemin rolu // – Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, – 2022. №4, – s. 87-93.

26. Azərbaycan dilinin fonologiyasının aktual problemləri // “Çağdaş Azəbaycan dilinin aktual problemləri” III Respublika elmi konfransının materialları. – Naxçıvan: NDU nəşriyyatı, –30 mart, – 2023, s. – 116-120.

27. Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan fonetikasının və fonologiyasının inkişaf səviyyəsi // “Heydər Əliyev və milli dövlətçilik məsələləri”. Respublika konfransının materialları. – Naxçıvan: “Naxçıvan” Universiteti, – 25-26 may, – 2023, s. – 69-73.

28. Həsən Mirzə şeirlərində fonetik tarazlıq // “Qərbi Azərbaycana qayıdış” Beynəlxalq festival-konqresin materialları. – Naxçıvan: NDU nəşriyyatı, – 23-24 noyabr, 2023, – 2024, – s. 483-487.

29. İslam Səfərlinin şeirlərində fonetik əvəzlənmə // – Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, – 2024. №1, – s. 124-128.

Dissertasiyanın müdafiəsi 24 iyun 2024-cü il tarixində saat $11^{00}$-da Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurası bazasında yaradılmış BFD 2.39/1 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan şəhəri. Universitet şəhərciyi, AZ 7012, Naxçıvan Dövlət Universiteti.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür

Dissertasiya və avtoreferatın elektron versiyası Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 21 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.05.2024
Kağızın formatı: 60x90 1/16
Həcm: 37432 işarə
Tiraj: 100